**Tahirə BAĞIROVA**
*filologiya üzrə fəlsəfə doktoru*

# KLASSİK AZƏRBAYCAN ŞAİRİ HÜSEYN CAVİDİN ƏDƏBİ İRSİNİN NƏŞR TİPLƏRİ

***Aça r sözlər:*** *Azərbaycan, H.Cavid, əsər, nəşriyyat, şairin əsərləri, çap edilmiş, oxucu kütləsi, mədəni, xalq, nəşr, nəşr tipləri*

***Ключевые слова:*** *Азербайджан, Г. Джавида, статьи, публикации, произведения поэта, была опубликована, читатели, культурной, общественной, опубликованные, виды издательской*

***Key words:*** *Azerbaijan, H. Javid, articles, publishing, the poet's works, was published, readers, cultural, public, published, broadcast types*

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mənzum dram janrının banisi H.Cavid XX əsr Azərbaycan romantizminin nəhəng simasıdır. Şair-dramaturq mürəkkəb bir həyat və yaradıcılıq yolu keçmiş, xalqımıza misilsiz bir irs qoyub getmişdir. Ömrü boyu həqiqəti vəsf edən və daim həqiqət axtaran, öz doğma xalqını xoşbəxt, yüksək görmək arzusu ilə yaşayan bu humanist ruhlu şairin yaradıcılıq qayəsi və ideyaları bu gün də aktualdır.

Azərbaycan klassik ədəbiyyatının tipologiyasında klassik yazıçıların əsərlərinin tipologiyasının yerini müəyyənləşdirməkdə H.Cavidin əsərlərinin tipologiyasının aydınlaşdırılmasının da böyük kitabçılıq işi əhəmiyyəti vardır.

H.Cavidin əsərlərinin tipoloji cəhətdən nəşrinin araşdırılması göstərdi ki, şairin əsərlərinin nəşri ədəbi-bədii kitabın tipologiyasının qanunauyğunluğuna, prinsipinə uyğun şəkildə həyata keçirilib.

Ümumiyyətlə, şairin əsərləri 1904-cü ildən müxtəlif qəzet, jurnal və məcmuələrdə: "Şərqi-Rus", "İrşad", "Füyuzat", "Həqiqət", "İttifaq", "Tərəqqi", "Məktəb", "Yeni irşad" və s. dərc edilmişdi.

H.Cavidin 1904-1920-ci illərdə dövri mətbuat və məcmuələrdə 55-dən çox şeiri dərc olunmuşdu .

Şairin əsərləri əsasən "Füyuzat", "Məktəb", "Molla Nəsrəddin", "Qurtuluş", "Maarif və mədəniyyət", "Şərq qadını", "İnqilab və mədəniyyət", "Ulduz" və s. jurnallarda və məcmuələrdə 1907-ci ildən dərc edilməyə başladı. 1919-1920-ci illərdən şarin ayrı-ayrı əsərləri dərsliklərdə, müntəxəbatlarda dərc edilmişdir. Ayrı-ayrı dərsliklərdə, müntəxəbatlarda dərc edilən əsərləri Hüseyn Cavidin ədəbi irsinin daha dərindən mənimsənilməsinə, təbliğinə və yayılmasına imkan vermişdir. Hüseyn Cavidin əsərləri A.Şaiq və M.Mahmudbəyovun "Müntəxəbat"ında (1919), "Bir qız" adlı şeiri, A.Ş.Talıbzadənin "Milli qiraət" dərsliyində "Öksüz", "Ənvər" şeirləri (1922-ci illərdə), Abdulla Şaiqin "Türk ədəbiyyatı" (1924) kitabında şairin "Bakıda" şeiri, A.Şaiqin "Qiraət kitabı"nda (1924), "Çiçək sevgisi" şeiri, yenə A.Şaiqin "Türk ədəbiyyatı" kitabında "Hərb və fəlakət" şeirindən bir parça, F.Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları (I C., I hissə)" kitabında 1925-ci ildə "Bakıda", "Hərb və fəlakət" adlı şeirləri, "Ədəbiyyatdan iş kitabı"nda "Şeyda" pyesindən bir parça" 1932-ci ildə, M.Arif və Ə.Sultanlının "Ədəbiyyat müntəxəbatı"nda 1933-cü ildə "Azər"dən parçalar, "İblis" pyesindən bir hissə, "Məsud və Şəfiqə" adlı şeir, "Şeyda" pyesindən bir hissə və s. dərc edilmişdir.

Hüseyn Cavidin ayrı-ayrı əsərləri Türkiyə mətbuatında (1906-cı ildən, "Elmi-bəşər" adlı şeirilə ), Litva mətbuatında da və s. dərc edilmişdir.

Fevral ayında Tiflis gürcü şirkəti mətbəəsində onun 1910 – cu ildə yazdığı "Ana" pyesi, may ayında isə "Şərq" mətbəəsində "Keçmiş günlər" adlı ilk şeir məcmuəsi nəşr olunur. Burada şairin həqiqətən keçmişdə, 1905-1909-cu illərdə yazdığı bəzi şeirləri toplanmışdı.

"Ana" və "Keçmiş günlər"i Cavid 1911-ci ildə Tiflisə gələrkən nəşriyyata vermiş, ancaq əsərlər sonra 1913-cü ildə nəşr edilmişdir. Bu müəllifin ilk şeirlər kitabıdır.

H.Cavidin 1905-1916-cı illərdə yazmış olduğu şeirlərini özündə təmsil edən "Bahar şəbnəmləri" məcmuəsi və "Maral", "Şeyx Sənan", "Şeyda" adlı dram əsərləri 1917-ci ildə Bakıda "Açıq söz" qəzetinin mətbəəsində çapdan çıxmışdır.

H.Cavid 1912-ci ildə Tiflisdə ikən başladığı "Şeyx Sənan" faciəsi üzərində həvəslə işləyirmiş. 1914-cü ilin birinci yarısında da şair "Şeyx Sənan" üzərində çalışmışdır. Bu faciənin bir çox variantı olmuşdur. Son variant 1914-cü ilin axırlarında yazılıb qurtarmışdır.

1917-ci ildə may ayında "Qardaş köməyi" məcmuəsində Cavidin yanvar ayında yazdığı "Hərb və Fəlakət" şeiri çıxır. Həmin ildə şair "Uçurum" faciəsini bitirir.

H. Cavid 1918-1920-ci illəedə "İblis" faciəsi üzərində işləmiş, öz sənətini sevmiş və mövcud olan çox sayda mövzulardan ruhuna və sənətinə

ən çox uyğun gələni səssiz – səmirsiz yazır, əsəri kamil şəkildə bitirdikdən sonra nəşr olunmasına səy göstərirdi.

Azərbaycanda Sovet hakimiyyətinin qələbəsindən sonra yeni dövr başlanır. 1920-1925-ci illərdə Cavid Azərbaycan Dövlət darülfünunda müəllimlik edir. Azərbaycanda yeni, azad həyat Cavid yaradıcılığına çox müsbət təsir göstərmişdir.

1926-cı ildən başlayaraq yaradıcılığında və görüşlərində ciddi dönüş əmələ gəlir. Bu zaman H.Cavid həyatda və şüurunda əmələ gələn yenilikləri xalqın mədəni inqilab uğrunda mübarizəsini əks etdirən "Azər" poemasından parçalar nəşr etdirir.

1930-cu ildə H.Cavid Cənubi azərbaycanlıların azadlıq uğrunda mübarizəsindən bəhs edən "Telli saz" dramını yazır. Ümumiyyətlə, 1929-1937-ci illər Cavid yaradıcılığının ən məhsuldar dövrü olur. Şair bir-birinin ardınca "Səyavuş" (1933), "Şəhla" (1934), "Xəyyam" (1935), "İblisin intiqamı" (1936) və başqa əsərlərini yaradır.

Məlum olduğu kimi, Böyük Oktyabr Sosialist inqilabından əvvəl Cavidin əsərlərinin cüzi bir hissəsi çap olunmuş, dramlarından heç biri səhnə üzü görməmişdi.

Azərbaycanda sovet hakimiyətinin ilk illərindən başlayaraq dramaturqun əsərləri böyük tirajlarda nəşr olunaraq oxuculara təqdim edilmişdir.

Sovet hakimiyyəti illərində şair – dramaturqun "Peyğəmbər" (1923, 1926), "İblis" (1924, 1927), "Şeyda" (1925), "Şeyx Sənan" (1926), "Uçurum" (1926), "Topal Teymur" (1926) dram əsərləri ayrıca kitab halında çap edilmişdir.

Dramaturqun nəsrlə yazdığı dörd pərdəli "Afət" pyesi ilk dəfə "Maarif və mədəniyyət" jurnalının 1925-ci il 3-cü və 1926-vı il 1,2,3,4-cü nömrələrində hissə-hissə dərc edilmişdir.

Istedadlı sənətkarın 1926-cı ildən başlayaraq müxtəlif adlarda cıxan dövri mətbuatda "Maarif və mədəniyyət", "Şərq qadını", "İnqilab və mədəniyyət" və s. dərc edilən "Azər" dastanı onun yaradıcılığındakı böyük dönüş idi. Əsər 1926-1936-cı illər arasında yazılmış, lakin tamamlanmamışdır. "Azər"dən parçalar 1933-cü ildə çıxan "Ədəbi almanax" məcmuəsinə, 1933 və 1936-cı illərin ədəbiyyat müntəxəbatı dərsliklərinə daxil edilmişdir.

H.Cavid yaradıcılığının ən məhsuldar dövrü olan 1930-1937-ci illərdə şair "Azər"dən başqa "Telli saz", "Knyaz", "Səyavuş", "Şəhla", "Xəyyam" və "İblisin intiqamı" dramlarını və bir sıra yeni şeirlərini yazmışdır.



H.Cavidin 1958-ci ildə nəşr olunmuş "Seçilmiş əsərlər"ə akad. M.C.Cəfərov "Hüseyn Cavid" adlı iri həcmli giriş (S.3-27) məqaləsi yazmışdır.

Alim öz giriş məqaləsində şairin əsərlərinin nəşri tarixinə, dil və üslub xüsusiyyətlərinə çox cüzi yer vermişdir. M.Cəfər yazır ki, 1920-ci ildə Cavid 15 il müddətində yazdığı əsərlərdən ancaq iki kiçik şeir məcmuəsi, "Ana", bir də "Maral" dramını ayrıca kitab şəklində nəşr etdirə bilmişdir.

Sovet hakimiyyəti illərində isə təkcə 4 il müddətində (1926-1930) şairin səkkiz kitabı nəşr edilmişdi.

H.Cavid görkəmli bədii söz ustadı Ə.Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazdığı beş pərdəli mənzum "Səyavuş" faciəsini Firdovsinin anadan olmasının 1000 illik yubileyinə ithaf etmişdir.

H.Cavidin əsərləri 1957-ci ilə qədər nəşr edilməmişdir. Bunun səbəbi şairin əsassız həbs edilməsidir. Belə ki, 1937-ci il iyunun 3-də Azərbaycan K (b) P-nin XIII qurultayında Cavidə "Gizli millətçi əksinqilabi təşkilat"da iştirakına görə ittiham irəli sürülmüşdür. 1956-cı il mart ayının 6-da Azərbaycan SSR Ali Məhkəməsinin hökmünə görə Cavidə bəraət verilmişdir. Mənəvi repressiyanın qurbanı olan H.Cavidin əsərləri bəraət aldıqdan sonra nəşr olunmağa başlayır.

Beləliklə də, 1957-ci ildə H.Cavidin "Ana" dramı çap edildi. 1958-ci ildə "Azərnəşr" tərəfindən H.Cavidin "Seçilmiş əsərlər"inin nəşri də diqqətəlayiqdir.

H.Cavidin 1958-ci ildə çap edilmiş "Seçilmiş əsərlər"inin tirajı 20.000 nüsxə olmuşdur.

Şairin "Seçilmiş əsərlər"inin çap edilməsində məqsəd H.Cavidin ən yaxşı əsərlərini geniş oxucu kütləsinə çatdırmaq olmuşdur.

## ƏDƏBİYYAT

1. Cəfər M. "Hüseyn Cavid" Bakı, Azərnəşr, 1960, 263 s.
2. Şərif Ə. "Keçmiş günlərdən xatirələr" (Xatirələr) Bakı, Azərnəşr, 1977, 302s.
3. "Hüseyn Cavid: Həyat və sənət yolu" (Biblioqrafik göstərici). Tərtib edənlər: N.Əfəndiyeva, A İsmayılova, Z. Teyyubova. Bakı, Elm, 2005, 240s.
4. Cavid H. "Keçmiş günlər" , şeirlər məcmuəsi, Tiflis, Şərq mətbəəsi, 1913, 24s.

5.. Nəcəfova M.H. “Cavid əsərlərinin nəşri və səhnə tarixinə dair” “Qobustan” toplusu, 1983, № 2, s.13-17
6. Cəfər M. “Hüseyn Cavid” Bakı, Azərnəşr, 1960, 263 s.
7. Cavid H. “Seçilmiş əsərləri” Bakı, Azərnəşr, 1958, 66s.

**Т.А.Багирова**

## ИСТОРИЯ ИЗДАНИЙ ПРОИЗВЕДЕНИЕ ГУСЕЙНА ДЖАВИДА (1904 - 1958)

### РЕЗЮМЕ

В статье обобщаются особенности развитие издательских произведений классика азербайджанской литература Г.Джавида. В резюме дается также ряд рекомендаций и предложений в деле повышения уровня изданий произведений выдающихся азербайджанской поэта Г.Джавида сообразно современным требованиям.

**T.A.Baghirova**

## HISTORY OF WORK PUBLICATIONS OF HUSEYN JAVID (1904 - 1958)

### SUMMARY

The article summarizes the development of the publishing features of works of classic of Azerbaijani literature H. Javid. In summary, it is given a number of recommendations and suggestions in improving the standard of editions of works by prominent Azerbaijani poet H.Javid according to modern requirements.